# PERSONALİA
# ПЕРСОНАЛИИ
# PERSONAL NEWS

## CƏLİL MƏMMƏDQULUZADƏ – 150



2019-cu il "Nəsimi ili" olsa da, ümumilikdə ədəbiyyat ili kimi tarixə düşə bilər. Bu il bir çox tanınmış ədəbiyyat xadimi ilə yanaşı, Azərbaycanın görkəmli nasiri, dramaturq və publisisti Cəlil Məmmədquluzadənin də 150 illik yubileyidir. Bununla əlaqədar 17.01.2019 tarixində Azərbaycan Respublikasının Prezidenti Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalamışdır. Bu sərəncam Mirzə Cəlil irsinə və onun ədəbi fəaliyyətinin şah əsəri sayılan "Molla Nəsrəddin" jurnalına dövlət səviyyəsində xüsusi diqqət hesab edilməlidir.

Cəlil Məmmədquluzadə 1869-cu ildə Azərbaycanın qədim diyarı Naxçıvan şəhərində dünyaya göz açıb. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu məktəb oxumasa da, ibtidai səviyyədə savadlı olub. Məmmədqulu kişi ömür boyu şəriət qaydalarına əməl etmiş, halal və zəhmətkeş həyat tərzi sürmüşdür. Uzun müddət duz mədənində gözətçi işləmiş, sonra baqqal dükanı açaraq kiçik ticarətlə məşğul olmuşdur. Cəlil Məmmədquluzadə 1873-1878-ci illərdə mollaxana təhsili almış, burada ərəb-fars dillərini mənimsəmişdir. Daha sonra isə Naxçıvan şəhər üçsinifli məktəbində ibtidai təhsil almışdır. Burada dünyəvi elmlərə olan marağı onun həyat və cəmiyyət haqqında təsəvvürlərini formalaşdırmışdır.

Sənətkarın 1882-1887-ci illərdə Qori Müəllimlər Seminariyasında keçən təhsil dövrü daha məhsuldar olub. Cəlil Məmmədquluzadə burada müxtəlif millətlərə məxsus müəllimlərdən (A.O.Çernyayevski, D.D.Semyanov, N.N.Novospasski, N.O.Lomouri və b.) dərs almış, təcrübəli pedaqoqların, ədib və maarifçilərin pedaqoji-metodiki təcrübələrindən faydalanmışdır. Sözsüz ki, onlardan öyrəndikləri sənətkarın gələcək ədəbi-bədii, pedaqoji fəaliyyətinə təsirsiz ötüşməmişdir.

Belə ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatına janr və forma baxımdan bir çox yeniliklər gətirə bilmişdir. Danılmaz faktdır ki, ədəbiyyatımızda ilk mənzum alleqorik dram, ilk satirik hekayə, ilk felyeton kimi novator hadisələr Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır.

Mirzə Cəlilin ədəbi-bədii fəaliyyətini bir neçə istiqamətdə nəzərdən keçirmək olar:

**Nasir Mirzə Cəlil:** Mirzə Cəlil XX əsrin əvvəllərindən etibarən fasiləsiz olaraq

bədii fəaliyyətlə məşğul olmuşdur. Böyük sənətkarın "Usta Zeynal" (1905), "Dəllək" (1906), "İranda hürriyət" (1906), "Fatma xala" (1906), "Qurbanəli bəy" (1906), "Quzu" (1914), "Nigarançılıq" (1916), "Konsulun arvadı" (1918) və s. hekayələri onun kiçik janrda böyük sənətkar olduğunu sübuta yetirir.

Cəlil Məmmədquluzadənin yaradıcılığında Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda, ümumbəşəri dəyərləri əks etdirən fikirlər milli ideologiyamızın formalaşmasında mühüm rol oynamışdır. Cəlil Məmmədquluzadə dərin milli-ictimai təfəkkürə sahib sənətkar idi. Sənətkarın bədii nəsr yaradıcılığı ədəbiyyatımızda yeni bir hadisə hesab edilə bilər. Müşahidə etdiyi həyat həqiqətlərinin olduğu kimi canlı təsviri, zəhmətkeş insanların acınacaqlı talelərinin real təqdimatı, milli oyanışa və tərəqqiyə çağırış, təsirli dil-üslub bacarıqları ədibin bədii nəsrinin özünəməxsusluğu və fərdi sənətkarlıq keyfiyyətləri baxımından diqqəti cəlb edən ən mühüm məqamlarıdır. Cəlil Məmmədquluzadə bizi bizdən ayıran, bizi başqalaşdırıb özümüzü özümüzə biganələşdirən bütün eybəcərliklərə qarşı çıxırdı. Bu eybəcərliklər nadanlıq, dilə biganəlik, mənəvi dəyərlərə və milli varlığa laqeydlik idi. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatı tarixinə böyük demokrat ədib, vətəndaş, milli yazıçı, kiçik hekayənin böyük ustadı kimi düşmüşdür. Ədib daha çox nəsr əsərlərində "kiçik adamın böyük himayədarı" qismində çıxış etmişdir.

**Dramaturq Mirzə Cəlil:** Ədəbiyyatımızda xüsusi çəkisi olan "Ölülər" (1909) tragikomediyası cəhalətin və mövhumatın əleyhinə yazılmış ən təsirli əsərlərdəndir. "Ölülər" əsəri mövzu orijinallığı, ideya zənginliyi ilə bərabər, bədii vasitələri, janr xüsusiyyətləri və s. cəhətlərdən də kamil bədii sənət incisidir. "Ölülər"i kəskin bəşəri problemləri yüksək sənətkarlıqla canlandıran bir dramatik əsər kimi dram, faciələrə xas keyfiyyətləri ehtiva edən, dramatik ünsürlərə malik bir məzhəkə, həyati faciəni, dəhşətli həqiqəti göstərən komediya, yaxud tragikomediya, yaxud satirik komediya adlandırmışlar. Janr baxımından bu mülahizələrin heç biri təsadüfi deyildir və "Ölülər"ə xas olan xüsusiyyətlərlə bu və ya digər cəhətdən bağlıdır. Dramatik, komik, lirik, tragik ünsürlərin üzvi vəhdətinin yaratdığı əlvanlıq əsərin yüksək bədiiliyini təmin edir. "Ölülər" tematikası, obrazları, bədii ümumiləşdirmələri ilə satirik komediyanın yeni, orijinal bir nümunəsidir.

**Satirik şair Mirzə Cəlil:** Cəlil Məmmədquluzadə bədii yaradıcılığını poeziya sahəsində də özünəməxsus üslub və mövzuda davam etdirmişdir. Bədii nəsr, dram və publisistik əsərlərində olduğu kimi satirik şeirlərində də maarifçiliyə çağırış, müşahidə etdiyi hadisə və şəxslərin çatışmazlıqlarının, cahilliyin və mövhumatçılığın tənqidi əsas yer tuturdu. "Xoş ol zaman ki, xalq yatıb bizəban idi", "Lisan bəlası", "Zaman ol zaman idi", "Lay-lay", "Qafqaz xəbərləri" və s. şeirləri daha çox publisistik mahiyyət daşıyır. Bu şeirlər həm təsvir üslubuna, həm də mövzunun təqdimi formasına görə sənətkarın məqalə və felyetonlarını xatırladır. Sənətkarın satirik şeirləri daha çox "Molla Nəsrəddin" jurnalının müxtəlif saylarında dərc olunmuşdur. Ümumilikdə Cəlil Məmmədquluzadə yaradıcılığına nəzər saldıqda aşkar görünür ki, sənətkar üçün nəzm şəklində əsərlər yazmaq xarakterik deyil. "Molla Nəsrəddin" jurnalının ətrafında toplaşmış böyük satirik şairlər ordusu var idi. Əlbəttə bədii sözün satirik üslubda mahir ifadəçisi olan Cəlil Məmmədquluzadə bu ordudan geri qala bilməzdi. O, öz dövrünün bir çox şairlərinin əsərlərini, həmçinin bir sıra xalq mahnıları və folklor nümunələrini satirik şəklə salaraq mükəmməl bədii mətnlər yaratmışdır.

**Publisist Mirzə Cəlil:** Cəlil Məmmədquluzadə həm də tanınmış publisistdir. Ədəbi məktəb yaratmış ilk mətbu orqanı olan "Molla Nəsrəddin" onun adı ilə bağlıdır. Mirzə Cəlil yaradıcılığının ən uca zirvəsini müəyyən etmək çətin olsa da, tərəzinin "Molla Nəsrəddin" kəfəsi ağır gəlir. Bu jurnal sənətkarın yaradıcılığının bütün istiqa-

mətlərində qaldırdığı problemlərin və irəli sürdüyü ideoloji məsələlərin məcmusudur. XX əsrin əvvəllərində ölkə-mizdə və ölkəmizdən kənarda baş verən hadisələrə böyük güzgü olan jurnal həm də mollanəsrəddinçilər ordusunun əsas "qərargahı" idi. Bu "qərargah"da mətbuat tariximizin qızıl sətirlərini qələmə alan M.Ə.Sabir (1862-1911), M.S.Ordubadi (1872-1950), Ö.F.Nemanzadə (1872-1938), Ə.Nəzmi (1878-1946), Ə.Qəmküsar (1880-1919), Ə.Haqverdiyev (1870-1933), M.Möcüz (1873-1934), B.Abbaszadə (1859-1926) kimi görkəmli ədiblər fəaliyyət göstərmişdir. XX əsr Azərbaycan ictimai-bədii fikrinin parlaq simalarından olan Cəlil Məmmədquluzadə çoxcəhətli fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında tənqidi realizmi yeni və satirik istiqamətli bir mərhələyə çatdırdı. Novator sənətkarın yaradıcılığı, klassik sənət əsərləri ilə yanaşı duran bədii nəsri mövzu-ideya, poetik forma etibarilə kamil sənətkarlıq nümunələridir. Ədibin milli şüurun oyanmasına ciddi təsir göstərən yaradıcılığı bədii nəsrində də müəllif qayəsinin, sənətkarın estetik idealının, fəaliyyətinin təcəssümüdür. Təbii ki, ideya nə qədər ali, nə qədər mütərəqqi olsa da, xalq dilinə, ruhuna yaxın forma və məzmun vəhdətində cilalanmasa, nə bəyənilə, nə də istənilən şəkildə qavranıla bilər.

Ümumilikdə Cəlil Məmmədquluzadənin yaradıcılığında toxunduğu mətləblərin bir çoxu günümüzdə də aktualdır. Bu baxımdan ədib nəinki öz dövrünün, həm də bu günün azərbaycanlısıdır. Mirzə Cəlilin milli-mənəvi oyanış, tərəqqi və dirçəliş, milli istiqlal, vətənpərvərlik məsələlərinə həsr edilən, həmişə də müasir səslənən ölməz bədii-publisistik əsərləri Azərbaycanda hazırkı milli və müstəqil dövlət quruculuğuna uğurla xidmət edir.

*Elxan Nəcəfov*